# Azərbaycan məhbəs nəsrinin yaradıcısı



Rövşən Yerfi

Müstəqillik illərində ədəbiyyatımızda da yeni keyfiyyət əlamətləri yaranmağa başladı. Ciddi sayılacaq belə əlamətlərdən biri də həbsxana həyatından bəhs edən məhbəs nəsrinin yaranması idi.

Doxsanıncı illərdən başlayaraq iyirmi üç il ərzində yeddidən çox yazıçının yaradıcılığında özünü göstərən məhbəs ədəbiyyatı nümunələrinin varlığı təəssüf ki, hələ də ədəbi tənqidimizin nəzərini cəlb etməyib. Bu yazıda məqsədim ədəbiyyatımızda məhbəs nəsrinin yaradıcısı Çingiz Ələkbərzadə haqqında danışmaqdır.

Çingiz Ələkbərzadə 1936-cı il oktyabrın 17-də Bakı şəhərində, ədəbiyyatımızın görkəmli yazıçılarından biri olan Əbülhəsən Ələkbərzadənin ailəsində anadan olmuşdur. Tovuz şəhərində orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Tələbəlik dövründə "Kökəlməyin sirri" adlı ilk hekayəsi almanaxda dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir. 1964-cü ildə "Yarpaqlar töküləndə" adlı ilk kitabı çap olunmuşdur.



Əmək fəaliyyətinə Əli Bayramlı rayonundakı 2 saylı orta məktəbdə müəllim kimi başlamışdır. O, həyatı ərzində hərəsində bir neçə il işləməklə xeyli sayda iş yeri dəyişmişdir. İsmayıllı rayonundakı İvanovka kəndində müəllim, Əli Bayramlıda "İşıq" qəzetində, İsmayıllıda "Zəhmətkeş" qəzetində, "Azərbaycanfilm" kinostudiyasında, "Kirpi" satirik jurnalında çalışmışdır. Ən çox işlədiyi yer Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi olmuşdur. Burada üç dəfə fasilələrlə müxtəlif illərdə on üç ildən çox fəaliyyət göstərmişdir.

1986-cı ildə televiziyanın "Günün ekranı" redaksiyasında Şirvan üzrə xüsusi müxbir işləyərkən şərlənərək həbs edilmişdir. Şübhəsiz, dörd yüz manat pulun cibinə salınması və üzəduran hal şahidləri hadisənin "yuxarıların" sifarişi ilə qurulduğunu sübut edir.

Nəticədə əlli yaşlı Çingiz Ələkbərzadə iki il yarım həbsdə yatmalı olur. Çox keçmədən bəraət almış, həyatının qalan on ilini də bədii yaradıcılığa həsr etmişdir. 1999-cu ilin yanvarın 7-də vəfat etmişdir.

Çingiz Ələkbərzadə heç vaxt atasının ad-sanından istifadə etməyə, yararlanmağa səy göstərməmiş, yüksək vəzifələrə can atmamışdır. Həbs edilənədək roman, povest və hekayələrdən ibarət beş kitabı çap olunmuşdu. 1977-ci ildə Mehdi Hüseynin "Abşeron" romanı əsasında çəkilmiş "Vulkana doğru" adlı ilk üç seriyalı Azərbaycan filminin ssenari müəllifi olmuşdu. Həbsdən sonra isə "Zindan", "Qumarbaz", "Türmə mənim ahımdır" adlı kitabları işıq üzü görmüşdür.

O, iki il yarımlıq həbs müddətində ömrünü qısaldan xəstəliyə düçar olsa da, 1992-ci ildə nəşr etdirdiyi "Zindan" romanı ilə Azərbaycan məhbəs nəsrinin əsasını qoydu. Onun ardınca məhbəs nəsrində 1993-cü ildə Qənimət Əlisaoğlunun "Lənət qapısı", 1996-cı ildə Oqtay Əhmədovun "Cəhənnəm yolu", 2000-ci ildə İsmayıl Qarayevin arxivindən "Sxodka" əsərləri oxucu kütləsinə təqdim olundu. Sonrakı illərdə də bu mövzuda roman, povest, pyes və hekayələr yazılmışdır.

Məhbəs mövzusunun gənc oxucular arasında cəlbedici olması səbəbindən yazıçının "Zindan" və "Qumarbaz" adlı kitabları vəfatından sonra da özəl nəşriyyatlar tərəfindən bir neçə dəfə çap olunmuşdur. Oxucunu cinayətdən çəkindirmək, azadlığı qiymətləndirmək, xeyirlə şərin mübarizəsini dərk etmək baxımından bu kitabları dəyərli əsərlər hesab etmək olar.

Yaşasaydı bu ay 79 yaşı tamam olardı. Hələ nə qədər ki, məhbəs nəsrində kitablar yazılmaqda davam edir, Çingiz Ələkbərzadə daim xatırlanacaq